**Layihə**

# Yerin təki haqqında

# Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11, 13 və 20-ci bəndlərinə uyğun olaraq yerin təkinin öyrənilməsi, onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyinin təmin edilməsi, dövlətin, yerin təki istifadəçilərinin mənafelərinin qorunması ilə bağlı münasibətləri tənzimləyir.

## 1-ci fəsil

## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. yerin təki - yer qabığının yer səthində yerləşən və ya torpaq qatından, su obyektlərinin (sututarların) dibindən aşağıda yerləşən, öyrənilməsi və istifadəsi mümkün olan dərinliklərədək uzanan hissəsi;

1.1.2. yerin təkindən istifadə münasibətləri - yerin təkinin istifadəsi, öyrənilməsi, işlənməsi və mühafizəsi sahəsində münasibətlər;

1.1.3. faydalı qazıntılar – yerin təkində bərk, maye və qaz şəklində olan, kimyəvi tərkibi və fiziki xüsusiyyətləri onların sənayedə və başqa təsərrüfat sahələrində təbii halda və ya ilkin emaldan sonra (təmizləmə və zənginləşdirmə) istifadəsi mümkün olan təbii və qeyri təbii mineral birləşmələrdir;

1.1.4. ümumi yayılmış faydalı qazıntılar - təbii halda olan və ya cüzi dəyişikliklərə uğramış yerli təsərrüfat ehtiyacları üçün istifadə edilən faydalı qazıntılar;

1.1.5. mineral - texnogen törəmələr – yataqların istismarı, saflaşdırılma və kimyəvi-metallurji işlənmə proseslərində faydalı qazıntı kütləsindən ayrılan və istismar, emal nəticəsində yer səthində toplanan tərkibində mineral maddə saxlayan suxurlar, məhsullar və tullantılardır;

1.1.6. kern - yerin təkinin geoloji kəsilişinin öyrənilməsi məqsədilə buruq qazma işlərində çıxarılan silindrşəkilli süxur nümunəsi;

1.1.7. faydalı qazıntı yataqları- yerin təkində kəmiyyətcə, keyfiyyətcə və yatım şəraitinə görə kondisiya tələblərinə cavab verən, sənayedə və başqa təsərrüfat sahələrində istifadəyə yararlı mineral maddələrin toplandığı ərazi;

1.1.8. kondisiya – yerin təkindəki faydalı qazıntıların (geotermal resursların) sənayedə istifadə olunmasının yararlığını müəyyən edən kəmiyyət və keyfiyyət göstəriciləri;

1.1.9. istismar - ehtiyatı müəyyənləşdirilmiş faydalı qazıntıların çıxarılması;

1.1.10. istismarla əlaqədar olmayan işlər – yerin təkində faydalı qazıntıların istismarı ilə əlaqədar olmayan, qurğuların tikilməsi işləri;

1.1.11. geoloji ayırma - geoloji öyrənilmə məqsədilə hüquqi və fiziki şəxslərə istifadəyə verilən yerin təkinin hüdudları;

1.1.12. geoloji öyrənilmə - geoloji-geofiziki, geoloji planaalma, geoekoloji, mühəndisi-geoloji, elmi-tədqiqat, paleontoloji, yerin təkinin ümumi geoloji tədqiqi, zəlzələlərin proqnozlaşdırılması, vulkan püskürmələri, yeraltı suların rejiminə nəzarət, həmçinin faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi, kəşfiyyatı, eləcə də istismarla əlaqədar olmayan yeraltı qurğuların tikilməsi üçün yerin təki sahələrinin öyrənilməsi;

1.1.13. mineral xammal - sənayedə və başqa təsərrüfat sahələrində istifadəsi mümkün və səmərəli olan faydalı qazıntı;

1.1.14. mineral-xammal ehtiyatları - geoloji tədqiqatlar və geoloji kəşfiyyat işləri nəticəsində yerin təkində aşkarlanan və ehtiyatları qiymətləndirilən, sənayedə istifadə üçün mümkün və səmərəli hesab olunan faydalı qazıntı ehtiyatları;

1.1.15. mineral-xammal bazası –müəyyən edilmiş qaydada ehtiyatları təsdiq edilmiş, faydalı qazıntı ehtiyatlarının dövlət və sahə balanslarında qeydiyyata alınmış faydalı qazıntı yataqları;

1.1.16. dövlət qeydiyyatı – yerin təkinin geoloji öyrənilməsi, faydalı qazıntıların istismarı, eləcə də istismarla əlaqədar olmayan məqsədlər üçün verilən yerin təki sahələri və onlarla əlaqədar müvafiq işlərin qeydiyyatı;

1.1.17. dövlət uçotu – dövlət qeydiyyatından keçmiş yerin təkinin geoloji öyrənilməsi, faydalı qazıntıların istismarı, eləcə də istismarla əlaqədar olmayan məqsədlər üçün verilən yerin təki sahələrinin vəziyyətini səciyyələndirən sənədlərin (hesabat, xəritə, məlumat vərəqi və digər sənədlərin) uçotu;

1.1.18. faydalı qazıntı təzahürü – yerin təkində kəmiyyət və keyfiyyətcə kondisiya tələblərini qismən ödəyən hazırki iqtisadi şəraitdə istismarı məqsədəuyğun hesab olunmayan mineral törəmələrin toplantısı;

1.1.19. faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrı – faydalı qazıntıların ehtiyatlarının kəmiyyətinin və keyfiyyətinin, onlarda olan komponentlərin miqdarının, yataqların işlənməsinin mədən-texniki, hidrogeoloji, ekoloji şəraitini və geoloji-iqtisadi qiymətləndirilməsini səciyyələndirən məlumatların, eləcə də hər bir faydalı qazıntı yataqlarına, təzahürünə dair məlumatların vahid formada (pasport) təsviri;

1.1.20. mədən işləri - istismar, eləcə də onlarla əlaqədar olmayan yeraltı qurğuların tikintisi və istismarı ilə bağlı fəaliyyət növü;

1.1.21. rekultivasiya planı - mədən işlərinin aparıldığı ərazinin kateqoriyasına uyğun olaraq istismar işləri bitdikdən sonra torpağın reabilitasiyası üzrə plan;

1.1.22. yerin təki istifadəçisi - müvafiq icazə sənədi (müqavilə) əsasında yerin təkindən istifadə edən hüquqi və fiziki şəxslər;

1.1.23. yeraltı qurğu – faydalı qazıntıların istismarı ilə əlaqəli olmayan, əmlakın saxlanılması, insanların və yüklərin yerdəyişməsi, digər müxtəlif növ təsərrüfat, o cümlədən istehsal fəaliyyətinin (istehsal obyektləri, tunellər, yeraltı yol ötürücüləri, yeraltı anbarlar və s) yerinə yetirilməsi məqsədli yer səthindən aşağıda yerləşən tikinti obyektləri ;

1.1.24. Mədən icazəsi - yerin təki sahəsində faydalı qazıntıların çıxarılması üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən sənəd;

1.1.25. Müqavilə - yerin təki sahəsinin birbaşa danışıqlar yolu ilə istifadəyə verilməsi məqsədilə bağlanılan əqd;

1.1.26. geoloji irs obyektləri – təbii irsin tərkib hissəsi olaraq, xüsusi təbiəti mühafizə, elmi-mədəni tarixi, estetik, rekreasiya və müalicəvi–sağlamlıq əhəmiyyət

kəsb edən, indiki və gələcək nəsillərin maraqlarında mühafizəsi tələb olunan stratiqrafik paleontoloji mineraloji, geomorfoloji və digər geoloji obyektlərin cəmidir.

1.1.27. mədən işlərinin inkişafı planı- faydalı qazıntıların istismarı və yerin təkindən istifadə ilə bağlı digər işlərin başlanması və davam etdirilməsi üçün tələb olunan sənəd.

1.1.28. yatağın istismar layihəsi- faydalı qazıntıların çıxarılması işlərini həyata keçirmək üçün tələb olunan, tərkibində texniki-iqtisadi hesablamalar, çizgi materialları, sxemlər və başqa məlumatlar olan sənədlər toplusu.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

## Maddə 2.Yerin təki haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

2.1. Yerin təki haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, habelə yerin təkinin öyrənilməsi, onun səmərəli istifadəsi, mühafizəsinə və görülən işlərin təhlükəsizliyinə dair tələbləri müəyyən edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

## Maddə 3. Qanunun tətbiq dairəsi

3.1. Bu Qanun Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində yerin təkinin öyrənilməsi, onun səmərəli istifadəsi, mühafizəsi sahəsində görülən işlərə şamil olunur.

3.2. Energetika ilə bağlı yerin təkindən istifadə münasibətləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilən qaydalarla tənzimlənir.

3.3. Ələt azad iqtisadi zonasında yerin təkindən istifadə sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

## Maddə 4.Yerin təki üzərində mülkiyyət hüququ

4.1. Yerin təki hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına xələl gətirmədən dövlətə mənsubdur.

4.2. İcazə (müqavilə) ilə ayrılan yerin təki sahəsinin hüdudları daxilində icazə (müqavilə) sahibi tərəfindən yerin təkindən çıxarılmış faydalı qazıntılar yerin təki istifadəçisinin mülkiyyətindədir.

4.3. Yerin təki istifadəçisinin faydalı qazıntılara, mineral-texnogen törəmələrə sahiblik etmək, istifadə etmək, sərəncam vermək, onlara münasibətdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan hər hansı mülki əqdlər bağlamaq hüququ vardır.

**Maddə 5.Yerin təkinin vahid dövlət fondu**

Azərbaycan Respublikasının ərazisində yerin təki, o cümlədən kontinental şelf və dəniz zonası bütünlükdə vahid dövlət fondunu təşkil edir və bu fonda yerin təkinin həm istifadə edilən, həm də istifadə edilməyən hissələri daxildir.

**M a d d ə 6 . Faydalı qazıntıların sənaye təsnifatı**

6.1. Faydalı qazıntılar sənaye təsnifatına görə yanar, filiz, qeyri-filiz, inşaat materialları, yeraltı su yataqlarına bölünür.
6.2. yanar faydalı qazıntılara - neft, qaz, daş kömür, torf, yanar şist, bitum və s.;
6.3. filiz faydalı qazıntılara - qara, nəcib, əlvan, ~~nadir,~~ qiymətli, radioaktiv metallar;
6.4. qeyri-filiz faydalı qazıntılar aşağıdakı kimi təsnifləşdirilir:
6.4.1. sənayenin müxtəlif sahələrində istifadə edilən barit, gips, gəc, bor, dolomit, seolit, kvarsit, xörək duzu, flyus, soda, bentonit gili, kaolin gili və s. xammallar;
6.4.2. qiymətli və yarımqiymətli daşlar: almaz, sapfir, yaqut, beril, zümrüd, akvamarin, əqiq, silisium oniks, yəşəm, opal, dağ bülluru və s.
6.5. inşaat materialları – əhəngdaşı, qum daşı, kərpic gili, tikinti daşları və s.;
6.6. yeraltı su - şirin, termal, mineral, sənaye, texniki sular.

**2-ci fəsil**

**YERİN TƏKİNDƏN İSTİFADƏ SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ**

**Maddə 7 . Yerin təkindən istifadənin prinsipləri**

7.1.Yerin təkindən istifadə aşağıdakı prinsiplərə əsaslanır:
7.1.1. mineral-xammal bazasının genişləndirilməsi;
7.1.2. ətraf mühitin mühafizəsinin təmin edilməsi;
7.1.3. yerin təkinin səmərəli, kompleks və təhlükəsiz istismarının təmin edilməsi;
7.1.4. yerin təkindən istifadə edəcək fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi;
7.1.5. yerin təkindən istifadənin aşkarlıq şəraitində həyata keçirilməsi;
7.1.6. yerin təkindən istifadəyə investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması;
7.1.7. yerin təkindən istifadənin ödənişli olması.

**Maddə 8. Yerin təkindən istifadə sahəsində dövlət tənzimlənməsinin məqsədləri**

8.1. Yerin təkindən istifadə sahəsində dövlət siyasətinin əsas məqsədi Azərbaycan Respublikasının mineral xammal bazasının genişləndirilməsi, eyni zamanda yerin təkindən səmərəli istifadə etməklə rəqabətə davamlı iqtisadi inkişafın,

əlverişli mühitin yaradılması və yüksək effektiv texnologiyalara investisiyaların cəlbinin təşviq edilməsindən ibarətdir.

8.2. Yerin təkindən istifadə sahəsində dövlət tənzimlənməsinin məqsədləri aşağıdakılardır:

8.2.1. yerin təki istifadəçilərinin hüquqlarının və qanuni mənafelərinin qoruması;

8.2.2. yerin təki sahəsində normativ hüquqi aktların Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş beynəlxalq standartlara, norma və qaydalara uyğunlaşdırılması;

8.2.3. mineral-xammal ehtiyatlarından səmərəli istifadə etməklə rəqabətə davamlı iqtisadi inkişafın təmin edilməsi;

8.2.4. ekoloji təmiz texnologiyaların və ətraf mühitin sağlamlaşdırılmasına yönəlmiş tədbirlərin tətbiqi ilə mineral-xammaldan səmərəli istifadə edilməsi;

8.2.5. mineral-xammal bazasının yaradılması, genişləndirilməsi, ondan səmərəli istifadə və yerin təkinin mühafizəsi;

8.2.6. Azərbaycan Respublikasının ərazisi, o cümlədən Xəzər dənizinin (gölünün) ona mənsub olan bölməsi daxilində yerin təkinin geoloji öyrənilməsi;

8.2.7. mineral-xammal ixracının müəyyənləşdirilməsi;

8.2.8. yerin təkindən istifadə ilə əlaqədar ödənişlərin tətbiqi;

8.2.9. yerin təkinin geoloji öyrənilməsi, istifadəsi və mühafizəsi, yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması sahəsində qaydaların müəyyənləşdirilməsi.

8.3. Sahibkarlara münasibətdə yerin təkindən istifadəyə dövlət nəzarəti “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

## Maddə 9. Yerin təkindən istifadə sahəsində dövlətin vəzifələri

9.1. Yerin təkindən istifadə sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

9.1.1. yerin təkindən istifadə sahəsində dövlət siyasətinin formalaşdırılması və dövlət tənzimlənməsinin, o cümlədən normativ tənzimləmənin həyata keçirilməsi;

9.1.2. yerin təkindən istifadənin, mineral-xammal bazasının inkişafının təmin olunması məqsədilə dövlət proqramlarının, elmi-texniki proqramların hazırlanması və həyata keçirilməsi;

9.1.3. yerin təkindən istifadənin təmin edilməsi üzrə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi;

9.1.4. yerin təkindən istifadə edilməsi məqsədilə torpaq sahələrinin icarəyə və ya istifadəyə verilməsi;

9.1.5. yerin təki istifadəçilərinin hüquqlarının və mənafelərinin qoruması;

9.1.6. dövlətin təhlükəsizliyi, əhalinin, yerin təki istifadəçilərinin və ətraf mühitin mühafizəsi məqsədilə yerin təkindən istifadəyə məhdudiyyətlərin qoyulması;

9.1.7. faydalı qazıntı ehtiyatlarının və təzahürlərinin dövlət kadastrının aparılması;

9.1.8. istismarda olan faydalı qazıntı yataqlarının və onların qalıq ehtiyatlarının müəyyənləşdirilməsi;

9.1.9. yerin təkindən istifadə ilə əlaqədar elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin əlaqələndirməsi;

9.1.10. mineral-texnogen törəmələrdən səmərəli istifadənin, onların mühafizəsinin və uçotunun aparılması;

9.1.11. yerin təkinin geoloji öyrənilməsi, faydalı qazıntıların istismarı, istismarla əlaqədar olmayan məqsədlər üçün istifadəyə verilən yerin təki sahələrinin və onlarla əlaqədar işlərin dövlət qeydiyyatının və uçotunun aparılması;

9.1.12. yerin təkindən istifadəyə görə ödənişlərin miqdarı və alınması qaydasının müəyyən edilməsi;

9.1.13. yerin təkinin geoloji informasiya fondunun formalaşdırması və geoloji informasiyadan istifadə qaydası müəyyən edilməsi;

9.1.14. mineral-xammal bazasının bərpası üzrə dövlət fondunun formalaşdırması;

9.1.15. ümumi yayılmış faydalı qazıntıların siyahısının müəyyənləşdirməsi;

9.1.16. faydalı qazıntı yataqlarının qanunsuz işlənməsi nəticəsində dəymiş ziyana görə normativlərin müəyyən edilməsi;

9.1.17. dövlət geoloji ekspertizasının keçirilməsi qaydalarının müəyyən edilməsi;

9.1.19. faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi qaydalarının müəyyən edilməsi;

9.1.20. faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması qaydalarının müəyyən edilməsi;

9.1.21. Faydalı qazıntı yataqlarının, mədən qazmalarının, buruq quyularının və istismarla əlaqədar olmayan yeraltı qurğuların konservasiyası və ləğv edilməsi qaydalarının müəyyən edilməsi;

9.1.22. istismarla əlaqədar olmayan məqsədlər üçün verilən torpaq sahələrinin hüdudlarında yerin təkindən istifadə qaydalarının müəyyən edilməsi;

9.1.23. faydalı qazıntı yataqlarının kəşfçilərinin mükafatlandırılması qaydalarının müəyyən edilməsi;

9.1.24. yerin təkindən səmərəli və təhlükəsiz istifadəyə, onun mühafizəsinə və geoloji öyrənilməsinə dövlət nəzarətinin təşkili və həyata keçirilməsi;

9.1.25. yerin təkinin dövlət monitorinqinin aparılması qaydalarının müəyyən edilməsi;

9.1.26. yerin təkinin birbaşa danışıqlar yolu ilə istifadəyə verilməsi hallarının siyahısının və qaydasının müəyyən edilməsi;

9.1.27. yer təkinin istifadəyə verilməsi üzrə hərracların keçirilməsi qaydalarını müəyyən edilməsi;

9.1.28. faydalı qazıntı yataqlarının geoloji-iqtisadi qiymətləndirilməsinin tələbləri və meyarlarını müəyyən edilməsi;

9.1.29. yerin təki sahəsində faydalı qazıntıların istismara verilməsi üçün “Mədən ayırması” sənədinin tərtib edilməsi qaydasının müəyyən edilməsi;

9.1.30. yerin təkinin öyrənilməsində elmi-təcrübi əhəmiyyətə malik kern nümunələrinin saxlanılması, qorunması və silinməsi qaydasının müəyyən edilməsi;

9.1.31. faydalı qazıntı ehtiyatlarının kondisiyalarının müəyyən edilməsi;

9.1.32. radioaktiv xammalın çıxarılması, radioaktiv tullantıların və zərərli maddələrin basdırılması üçün yerin təkinin istifadəsi qaydasının müəyyən edilməsi;

## Maddə 10. Yerin təkindən istifadə zamanı inhisarçılıq əleyhinə tələblər

10.1. Dövlət hakimiyyəti orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının, habelə hər hansı şəxslərinin aşağıdakılara yönəldilən hərəkətləri qadağan edilir:

10.1.1. bu Qanuna uyğun olaraq yerin təkindən istifadə hüququ almaq istəyən şəxslərin hərracda iştiraka buraxılmasının hərrac şərtlərinə zidd olaraq məhdudlaşdırılması;

10.1.2. hərrac qaliblərinə icazə verməkdən boyun qaçırılması;

10.1.3. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin Azərbaycan Respublikasının torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada yerin təki istifadəçilərinə istifadəyə və ya icarəyə verilməməsi;

10.1.4. hərracların birbaşa danışıqlar yolu ilə əvəz edilməsi;

10.1.5. yerin təkindən istifadədə hakim mövqeyə malik təsərrüfat subyektləri ilə rəqabətə davamlı strukturlar yaradan yerin təki istifadəçilərinin ayrı-seçkiliyə məruz qoyulması;

10.1.6. nəqliyyat və infrastruktur obyektlərindən istifadəyə imkan yaradılmasında yerin təki istifadəçilərinin ayrı-seçkiliyə məruz qoyulması.

10.2. Bu Qanunun 10.1-ci maddəsinin tələbləri pozulmaqla bağlanmış əqdlər etibarsızdır.

## Maddə 11. Yerin təkindən səmərəli istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti

11.1. Yerin təkindən səmərəli istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən monitorinq aparılmaqla həyata keçirilir.

11.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) istismar, yaxud istismarla əlaqədar olmayan yeraltı qurğuların tikintisini və istifadəsini həyata keçirən müəssisələrin təsərrüfat fəaliyyəti funksiyalarını yerinə yetirə bilməz.

11.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mineral xammal bazasının genişləndirilməsi məqsədi ilə yerin təkinin geoloji öyrənilməni müstəqil və ya başqa şəxslərlə birgə həyata keçirə bilər.

11.4. Yerin təkindən səmərəli istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti yerin təki istifadəçiləri tərəfindən mövcud qanunvericiliyə, yerin təkinin geoloji öyrənilməsi, istifadəsi və mühafizəsi sahəsində müəyyən edilmiş qaydalara, yerin təkindən istifadə ilə əlaqədar icazə (müqavilə) şərtlərinə, faydalı qazıntıların və yanakı komponentlərin yerin təkindən daha səmərəli çıxarılmasına, dövlət uçotu və hesabatı qaydalarına riayət olunmasını təmin etmək məqsədilə həyata keçirilir.

11.5. Yerin təkinin geoloji öyrənilməsinə, səmərəli istifadəsinə və mühafizəsinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

11.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) öz fəaliyyət istiqamətləri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahıda nəzərdə tutulmuş müvafiq işlərin görülməsi üçün lisenziya və icazələrin alınması tələb olunmur.

11.7. Yerin təkinin dövlət monitorinqinin aparılma qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 12. Yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılmasına dövlət nəzarəti**

12.1 . Yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılmasına dövlət nəzarəti yerin təki istifadəçiləri tərəfindən mövcud qanunvericiliyə, işlərin təhlükəsiz aparılmasına, onların əhaliyə, ətraf mühitə, bina və qurğulara zərərli təsirinin qarşısının alınması və aradan qaldırılması tələblərinə riayət olunmasını təmin etmək məqsədilə həyata keçirilir.

12.2 . Yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması üzərində dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

## 3-cü fəsil

## YER TƏKİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MEXANİZMLƏRİ

**Maddə 13. Yerin təkindən istifadənin icazə rejimi**

13.1. Yerin təkindən istifadəyə icazə yerin təkindən istifadə hüququnu verən sənəddir.

13.2. Yerin təkindən istifadəyə icazə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

**Maddə 14. Yerin təkindən istifadənin müqavilə rejimi**

14.1. Yerin təkinin birbaşa danışıqlar yolu ilə istifadəyə verilməsi müqavilə əsasında həyata keçirilir.

14.2. Müqavilə yazılı formada bu Qanuna əlavə edilmiş nümunəvi formaya uyğun iki nüsxədən az olmayaraq tərtib olunub tərəflərin imzası (möhürü) ilə təsdiq edilir. Müqavilənin bir nüsxəsi yer təki istifadəçisində, digər nüsxəsi isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurum) saxlanılır.

14.3. Yerin təkinin birbaşa danışıqlar yolu ilə istifadəyə verilməsi hallarının siyahısı və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyat keçirilir.

**Maddə 1 5 . Yerin təkindən istifadənin növləri**

15.1. Yerin təkindən istifadənin növləri aşağıdakılardır:

15.1.1. geoloji öyrənilmə;

15.1.2. faydalı qazıntıların istismarı;

15.1.3. mineral - texnogen törəmələrdən istifadə;

15.1.4. faydalı qazıntıların istismarı ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istifadəsi;

15.1.5. artezian və subartezian quyuların qazılması;

15.1.6. geoloji irs obyektlərinin və əsasən bu cür obyektlərdən ibarət təbiət komplekslərinin yerləşdiyi yer təki sahələrinin əsasında dövlət geoloji qoruq və yasaqlıqların, geoloji parkların və təbiət abidələrinin yaradılmasının məqsədəuyğunluğunu əsaslandırmaq məqsədilə aşkarlanması və tədqiqi;

15.1.7. mineraloji, paleontoloji və digər geoloji kolleksiya materiallarının, bəzək daşlarının toplanması, arxeoloji qazıntıların aparılması;

15.1.8. Elmi-tədqiqat işləri, zəlzələlərin proqnozlaşdırılması, ətraf mühitin monitorinqinin aparılması, yeraltı suların rejiminə və balansına nəzarət edilməsi, və yer təkinin bütövlüyünü pozmayan başqa işlər.

15.2. faydalı qazıntıların istismarı məqsədilə verilmiş yerin təki sahələri hüdudları daxilində yer təki istifadəçisi əlavə razılıq almadan geoloji öyrənilmə aparıla bilər.

15.3. Radioaktiv xammalın çıxarılması və radioaktiv tullantıların, zərərli maddələrin basdırılması üçün yer təkinin istifadəsi Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

**Maddə 16. Yerin təkindən istifadənin müddətləri**

16.1. Yerin təki istifadəyə aşağıdakı müddətlərə verilir:

16.1.1. geoloji öyrənilmə üçün — 5 ilədək;

16.1.2. faydalı qazıntıların istismarı üçün - 25 ilədək;

16.2. Yer təki sahələri digər məqsədlər üçün müəyyən müddətə və ya daimi verilə bilər.

16.3. Faydalı qazıntıların istismarı məqsədilə yerin təkindən istifadə müddəti yerin təkindən səmərəli istifadəni və onun mühafizəsini təmin edən texniki-iqtisadi əsaslandırılmasının nəticəsindən asılı olaraq müəyyən edilir.

16.4. Yerin təkindən istifadə müddətləri istifadə hüququnun verildiyi gündən hesablanır. Yerin təkinin istifadəçisi icazə (müqavilə) şərtlərini yerinə yetirərsə, tərəflərin razılığı ilə yerin təkindən istifadənin müddəti uzadıla bilər.

16.5. İcazənin (müqavilənin) sahibi icazənin (müqavilənin) müddətinin bitməsinə ən azı 30 gün qalmış icazənin (müqavilənin) müddətinin uzadılması barədə icazə verən orqana ərizə ilə müraciət etməlidir.

16.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan müddətin buraxılmasının səbəbini üzrlü hesab edərsə, maraqlı şəxsin ərizəsinə əsasən buraxılmış müddəti bərpa edir.

**M a d d ə 17. Yerin təkinin istifadəyə verilməsi**

17.1. Yerin təki istifadəyə müvafiq icra hakimiyyəti orqanınının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında həmin torpaq sahələrinin mülkiyyətçisinin qabaqcadan yazılı razılığı olduqda verilir.

17.2. Yerin təkindən istifadə üçün müvafiq icazə (müqavilə) sənədi verildikdən sonra müvafiq icra hakimiyyəti orqanınının müraciəti əsasında dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri 30 (otuz) gün müddətində yerin təkinin istifadəçisinə icarəyə və ya istifadəyə verilməlidir.

17.3. Ehtiyatı müvafiq qaydada təsdiq edilərək balansa götürülmüş faydalı qazıntı yataqlarının yerləşdiyi dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri məqsədli təyinatı dəyişdirilmədən icazə (müqavilə) müddətində yer təki istifadəçilərinə verilə bilər. Bu halda istismar müddəti bitdikdən sonra torpaq sahələri bərpa olunaraq (rekultivasiya edilərək) dövlət və bələdiyyə mülkiyyətinə geri qaytarılmalıdır.

17.4. Aşağıdakı hallarda yerin təkindən istifadə ilə əlaqədar icazə (müqavilə) tələb olunmur:

17.4.1. elmi-tədqiqat işləri və dövlət proqramlarına əsasən aparılan bütün növ geoloji işlər, zəlzələlərin proqnozlaşdırılması, ətraf mühitin monitorinqinin aparılması, yeraltı suların rejiminə və balansına nəzarət edilməsi və yer təkinin bütövlüyünü pozmayan başqa işlər üçün;

17.4.2. fiziki şəxslər tərəfindən kolleksiyaların toplanması və bəzək daşlarının yığılması;

17.4.3. yer təkinin istifadəçisi icazə (müqavilə) müddətində ayrılmış sahənin hüdudları daxilində mineral-texnogen törəmələrdən istifadə etdikdə.

17.5. Y*erin təki istifadəçisi faydalı qazıntı ehtiyatının axtarışı və kəşfiyyatını öz hesabına apardıqda yer təki* faydalı qazıntıların istismarı üçün istifadəyə bu Qanunun 14.3-cü maddəsinə uyğun olaraq verilir.

17.6 arxeoloji qazıntıların aparılması məqsədilə yer təki istifadəyə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən verilir.

17.7. Yerin təkindən istismar və bunlarla əlaqədar olmayan işlərin texniki layihəsi və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlandıqdan, ona müəyyən olunmuş qaydada dövlət ekspertizasının müsbət rəyi alındıqdan sonra yerin təkindən istifadəyə icazənin dəqiqləşdirilmiş hüdudlarını müəyyənləşdirən sənədlər (sahənin hüdudlarının koordinatlar cədvəli, planı və səciyyəvi kəsilişlər) yerin təkinin istismarına icazənin ayrılmaz tərkib hissəsi sayılır. Istismar və bunlarla əlaqədar olmayan işlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur. Həmin obyektlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport), ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişikliklər edilir. Bu sahədə fəaliyyət zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır. Bu sahədə fəaliyyətə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərin transsərhəd təsirlərinin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.

17.8. Ümumi yayılmış faydalı qazıntı yataqlarının siyahısı və yerin təki sahəsində faydalı qazıntıların istismarı üçün "Mədən ayırması" sənədinin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən edilir.

**Maddə 18. Yerin təkinin torpaq sahibləri tərəfindən istifadəsi**

18.1. Torpaq sahibləri onlara məxsus torpaq sahələrinin hüdudları daxilində, icazə almadan öz ehtiyaclarını ödəmək üçün partlayış işləri aparmadan beş metr dərinliyədək ümumi yayılmış faydalı qazıntıların istismarını və yeraltı qurğuların tikintisini, eləcə də mərkəzləşdirilmiş su təchizatı mənbəyi olmayan birinci sulu horizonta quyuların qazılmasını və istismarını həyata keçirə bilərlər.

18.2. Torpaq sahiblərinin onlara məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyaclarını ödəmək üçün yeraltı içməli sulardan və yerin təkindən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 19. Yerin təki sahələrinin rekultivasiyası**

19.1. Yer təki istifadəçiləri işlərin aparıldığı ərazinin məhsuldarlığını bərpa etmək və ətraf mühitin vəziyyətini yaxşılaşdırmaq üçün plan əsasında rekultivasiyanı təmin etməlidirlər.

19.2. Rekultivasiya planı istismarı həyata keçirən hüquqi və ya fiziki şəxslər tərəfindən və ya onların sifarişi əsasında bu istiqamətdə ixtisaslaşmış təşkilat tərəfindən hazırlanmaqla torpaq mülkiyyətçiləri ilə razılaşdırılmalıdır.

19.3. Planın hazırlanmasında ərazinin xüsusiyyətləri, süxurların kimyəvi tərkibləri, çirklənmənin növündən asılı olaraq rekultivasiyanın üsulları (mexaniki, bioloji, kimyəvi, termik) və istiqamətləri (xalq təsərrüfatında istifadə istiqamətləri) müəyyənləşdirilir.

19.4. istismarın dərinliyi, faydalı qazıntının növü, istismar ediləcək həcmə uyğun olaraq rekultivasiya planının cizgisi tərtib edilir.

19.5. Rekultivasiya planı hazırlandıqda aşağıdakılar nəzərə alınır:

19.5.1. torpaq bitki qatının həcmi və anbarlaşdırılacağı ərazi;

19.5.2. faydalı qazıntının və yanakı süxurların xüsusiyyətləri;

19.5.3. ərazinin hidrogeoloji və mühəndis-geoloji şəraiti;

19.5.4. anbarlaşdırma sahəsinin xüsusiyyətləri;

19.5.5. süxurların saxlanılma dövründə öz xüsusiyyətlərini dəyişməsinin mümkünlüyü və ətraf mühitə təsiri;

19.5.6. yeraltı suların çirklənməsinin yolverilməzliyi;

19.5.7. istismarın müddəti;

19.5.8. bərpanın üsulları və ardıcıllığı.

**Maddə 20. Artezian və subartezian quyuların qazılması, mineral və texnogen törəmələrdən istifadə, zərərli maddələrin basdırılması məqsədi ilə yerin təki sahələrinin verilməsi**

Artezian və subartezian quyuların qazılması, mineral və texnogen törəmələrdən istifadə, zərərli maddələrin basdırılması məqsədi ilə yerin təki sahələrinin verilməsi bu Qanunun 14-cü maddəsinin tələbləri nəzərə alınmaqla verilir.

**Maddə 21. Faydalı qazıntıların istismarı ilə əlaqədar olmayan məqsədlər üçün yerin təkinin istifadəyə verilməsi**

Faydalı qazıntıların istismarı ilə əlaqədar olmayan məqsədlər üçün verilən torpaq sahələrinin hüdudlarında yerin təkindən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 22. Xüsusi mühafizə olunan təbiət əraziləri və dövlət meşə fondu torpaqlarında yerin təkinin istifadəyə verilməsi**

22.1. Milli və geoloji parkların təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalarda torpaq və su (akvatoriya) sahələrində (sanitariya-mühafizə zonaları istisna olmaqla) yer təkinin geoloji öyrənilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı əsasında yol verilir.

22.2. Meşə bitkiləri ilə örtülü olmayan meşə fondu torpaqları və qeyri-meşə torpaqlarında yerin təkindən istifadə edilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı əsasında yol verilir.

22.3. Yerin təkindən istifadə qaydalarının pozulması nəticəsində ətraf mühitə vurulan ziyanın ödənilməsi və təbii quruluşu pozulmuş ərazilərin bərpa olunması təmin edilməlidir.

**Maddə 23. Yerin təkinin geoloji və geoekoloji öyrənilməsi məqsədi ilə istifadəyə verilməsi**

23.1. Yerin təki sahələri istifadəyə geoloji öyrənilmə üçün bu Qanunun 14.1-ci maddəsində nəzərdə tutlmuş qayadada verilir.

23.2. Eyni geoloji öyrənilmənin sərhədləri daxilində yerin təkinin geoloji cəhətdən öyrənilməsi üzrə bir tipli və yaxud müxtəlif məqsədli işlər, eyni geoloji ayırmanın sərhədləri daxilində fəaliyyət göstərən yer təki istifadəçisinin razılığı olduqda aparıla bilər

23.3. Yerin təkinin geoloji öyrənilməsi prosesində aşkar edilmiş faydalı qazıntı yatağı verilmiş geoloji öyrənilmənin hüdudlarından kənara çıxarsa və həmin sahə başqa şəxsə verilməyibsə, yer təki istifadəçisinin ərizəsi əsasında geoloji öyrənilmənin sərhədləri yatağı tam əhatə etməklə artırıla bilər.

## 4-cü fəsil

## YER TƏKİNDƏN İSTİFADƏ HÜQUQU

**Maddə 24. Yerin təkindən istifadə hüququnun anlayışı**

24.1.Yerin təkindən istifadə hüququ bu Qanunla təmin edilmiş yerin təki sahəsindən və onun yerləşdiyi torpaq sahəsindən müəyyən edilmiş müddət ərzində istifadə imkanını nəzərdə tutur.

24.2.Yerin təkindən istifadə bu Qanunla nəzərdə tutulmuş tələblərlərdə həyata keçirilir.

**Maddə 25. Yerin təkindən istifadə hüququnun əldə edilməsi əsasları**

25.1. Yerin təkindən istifadə hüququ aşağıdakı hallarda əldə edilir:
25.1.1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda icazə;
25.1.2. müqavilə (birbaşa danışıqlar yolu ilə baş verən hallarda);
25.1.3. vərəsəlik qaydasında;
25.1.4 yerin təkindən istifadə hüququ alqı-satqı müqaviləsi əsasında özgəninkiləşdirildikdə.

**Maddə 2 6 . Yerin təkindən istifadə hüququnun subyektlərinin hüquq və vəzifələri**

26.1. Hüquqi və fiziki şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında yerin təkinin istifadəçiləri ola bilərlər.
26.1. Yerin təkindən istifadə hüququnun subyektləri aşağıdakı hüquqlara malikdirlər:
26.1.1. icazə (müqavilə) ilə onlara ayrılmış yerin təki sahəsinin hüdudları daxilində yerin təkindən istifadə etmək;
26.1.3. icazəyə (müqaviləyə) və qanunvericiliyə uyğun olaraq fəaliyyətinin nəticələrindən, o cümlədən çıxarılmış mineral-xammaldan istifadə etmək;
26.1.4. faydalı qazıntıların istismarı məqsədilə verilmiş yerin təki sahələri hüdudları daxilində əlavə razılıq almadan mineral - texnogen törəmələrdən istifadə etmək;
26.1.5. faydalı qazıntıların istismarı məqsədilə verilmiş yerin təki sahələri hüdudları daxilində əlavə razılıq almadan geoloji öyrənilmə aparmaq;
26.1.6. icazənin (müqavilənin) şərtlərindən fərqli hallar meydana çıxarsa, həmin şərtlərə yenidən baxılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət etmək;
26.1.7. inzibati qaydada və məhkəməyə şikayət etmək;
26.2. Yerin təki istifadəçilərinin vəzifələri aşağıdakılardır:
26.2.1. Azərbaycan Respublikasının qanunvericiliyinə, habelə yerin təkindən istifadə üzrə qaydalara riayət etmək, faydalı qazıntıların normadan artıq itkisinə, keyfiyyətinin aşağı düşməsinə yol verməmək;
26.2.2. icazə (müqavilə) ilə müəyyənləşdirilmiş şərtləri yerinə yetirmək;
26.2.3. yerin təkinin geoloji öyrənilməsi, mineral-xammal ehtiyatlarından kompleks istifadə etmək;
26.2.4. yerin təkindən istifadə dövründə geoloji, markşeyder və istifadə ilə əlaqədar zəruri sənədləri tərtib etmək, həmin sənədləri, kern və nümunələri qorumaq;
26.2.5. geoloji-kəşfiyyat hesabatlarının dövlət geoloji informasiya fonduna təqdim etmək;
26.2.6. mineral-texnogen törəmələrin, faydalı komponentlər saxlayan və müvəqqəti istifadə edilməyən istehsal məhsullarının və tullantılarının yığılmasını (toplanmasını), uçotunu və qorunmasını təmin etmək;
26.2.7. kəşf olunmuş, çıxarıla bilən və yerin təkində qalan faydalı qazıntıların və onların tərkibində olan komponentlərin ehtiyatları, istismarla əlaqədar olmayan başqa məqsədlərlə yerin təkindən istifadə haqqında məlumatları dövlət geoloji informasiya fonduna təqdim etmək;

26.2.8. yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz görülməsini təmin etmək;

26.2.9. yerin təkinin, atmosferin, torpağın, meşələrin, suların, binaların və qurğuların yerin təkindən istifadə ilə əlaqədar işlərin zərərli təsirindən qorunmasını reqlamentləşdirən qaydalara riayət etmək;

26.2.10. yerin təkindən istifadə zamanı ətraf mühitə zərər vurulmasının qarşısının alınmasını, torpaqların rekultivasiyasını təmin etmək;

26.2.11. faydalı qazıntı yataqlarının işlənməsi və başqa təsərrüfat məqsədləri üçün istifadəsi mümkün olan kəşfiyyat mədən qazmalarını və buruq quyularını saxlamaq;

26.2.12. istifadəsi mümkün olmayan mədən qazmalarını və buruq quyularını müəyyənləşdirilmiş qaydada konservasiya və ya ləğv etmək;

26.2.13. icazədə (müqavilədə) göstərilmiş fəaliyyət növü üzrə statistik hesabatların vaxtında, tam və düzgün vermək, yerin təkindən istifadə üçün qanunvericilikdə nəzərdə tutulmuş ödənişləri etmək.

**Maddə 27. Faydalı qazıntıların istismarı üzrə yerin təkindən istifadə hüququnun özgəninkiləşdirilməsi**

27.1. İcazə (müqavilə) əsasında əldə edilmiş faydalı qazıntıların istismarı üzrə yerin təkindən istifadə hüququ belə hüququn verildiyi müddət çərçivəsində özgəninkiləşdirilə və vərəsəlik üzrə keçə bilər.

27.2. İcazə əsasında əldə edilmiş faydalı qazıntıların istismarı üzrə yerin təkindən istifadə hüququ özgəninkiləşdirildikdə və ya vərəsəlik üzrə keçdikdə əldə edən şəxsə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunun tələblərinə uyğun olaraq yeni icazə verilir.

27.3. Müqavilə əsasında əldə edilmiş *faydalı qazıntıların istismarı üzrə* yerin təkindən istifadə hüququ özgəninkiləşdirildikdə və ya vərəsəlik üzrə keçdikdə əldə edən şəxslə yeni müqavilə bağlanılır.

27.4. *Faydalı qazıntıların istismarı üzrə* yerin təkindən istifadə ilə bağlı icazənin (müqavilənin) verilməsindən 2 (iki) il keçməmiş (vərəsəlik qaydasında əldə edən şəxslər istisna olmaqla) həmin hüququn özgəninkiləşdirilməsi qadağandır.

**Maddə 28. Faydalı qazıntıların istismarı üzrə yerin təkindən istifadə hüququnun özgəninkiləşdirilməsi və vərəsəlik üzrə keçmə qaydası**

28.1. Faydalı qazıntıların istismarı üzrə yerin təkindən istifadə hüququ müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) qabaqcadan razılığı əsasında özgəninkiləşdirilə bilər.

28.2. Faydalı qazıntıların istismarı üzrə yerin təkindən istifadə hüququnun sahibi və ya vərəsə (vərəsələrin dairəsi iki və daha çox şəxs olduqda onların təyin etdiyi nümayəndə) bu hüququ özgəninkiləşdirmək istədikdə hüququ əldə etmək istəyən şəxslə birlikdə razılığın alınması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanına (quruma) ərizə ilə müraciət edir. Ərizədə aşağıdakılar göstərilməldir:

28.2.1. yer təkindən istifadə hüququnun əldə edildiyi sənədin əsli;

28.2.2. yer təkindən istifadə hüququnun sahibi və alıcısı haqqında məlumatları təsdiq edən sənədlər:

28.2.2.1. fiziki şəxslər üçün - ərizəçinin soyadı, adı və atasının adı (şəxsiyyətini təsdiq edən sənəddə göstərilibsə), yaşayış yeri, vətəndaşlığı, ərizəçinin şəxsiyyətini təsdiq edən sənədlər haqqında məlumatlar;

28.2.2.1. hüquqi şəxslər üçün - ərizəçinin adı, onun olduğu yer, hüquqi şəxs kimi dövlət qeydiyyatı haqqında məlumat;

28.3. Ərizəyə İnzibati icraat haqqında Qanunun tələblərinə əsasən baxılaraq müvafiq qərar qəbul edilir.

28.4. Müraciətə müsbət cavab verildikdən sonra yerin təkindən istifadə hüququ özgəninkiləşdirilməsi həyata keçirilə bilər.

**Maddə 29. Yerin təkindən istifadə hüququnun yüklülüyü**

29.1. Bu Qanunla özgəninkiləşdirilməsinə yol verilən yerin təkindən istifadə hüququ Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş şərtlərdə və qaydada üçüncü şəxslərin xeyrinə yüklü edilə bilər.

29.2. Yerin təkindən istifadə hüququnun yüklülüyü müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurumu) tərəfindən dövlət qeydiyyatına alınmalıdır. Yerin təkindən istifadə hüququnun yüklülüyü müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurumu) tərəfindən qeydiyyata alındıqdan sonra yaranır.

**Maddə 30. Yerin təkindən istifadə hüququnun dayandırılmasının əsasları**

30.1. Yerin təkindən istifadə hüququ aşağıdakı hallarda dayandırılır:

30.1.1. Bu Qanunun 40-cı maddəsinin tələblərinin pozulması hallarının aradan qaldırılmasına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göstərişlərini yerinə yetirmədikdə;

30.1.2. yerin təki istifadəçisi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

30.1.3. faydalı qazıntıların istismarı məqsədilə yerin təkinin istifadəçisi icazə (müqavilə) sənədi aldıqdan bir il müddətində üzrlü səbəb olmadan işə başlamadıqda;

30.1.4. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

30.1.5. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsində nəzərdə tutulmuş hallarda.

30.3. Yerin təkindən istifadə hüququnun dayandırılması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən inzibati akt qəbul edilir. Həmin inzibati aktda istifadə hüququnun dayandırılmasına əsas olan hallar və müddət göstərilməlidir. İnzibati akt qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində yerin təki istifadəçisinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

30.4 istifadə hüququnun dayandırılmasına əsas olan hallar göstərilən müddət ərzində üzrlü səbəblərdən aradan qaldırıla bilmədikdə verilmiş müddət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən uzadıla bilər.

30.5. İstifadə hüququnun dayandırılması haqqında inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

**Maddə 31. Yerin təkindən istifadə hüququnun ləğvinin (xitamının) əsasları**

31.2. Yerin təkindən istifadə hüququ aşağıdakı hallarda ləğv edilir:

31.2.1. yer tək istifadəçisi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

31.2.2. yer tək istifadəçisinə verilmiş icazə sənədinin müddəti bitdikdə;

31.2.3. yer tək istifadəçisinin ona verilmiş icazə sənədinin uzadılması ilə bağlı müraciəti təmin edilmədikdə;

31.2.4. Yerin təkindən istifadə hüququnun dayandırılması üçün əsas olan halların müəyyən edilmiş müddət ərzində aradan qaldırılmadıqda və bu barədə icazəni (müqaviləni) verən orqana yazılı məlumat verilmədikdə;

31.2.5. yerin təki sahəsinin yeganə sahibi fiziki şəxs öldükdə, ölmüş elan edildikdə və başqa şəxsə keçməsi nəzərdə tutulmadıqda;

31.2.6. yerin təki sahəsinin yeganə sahibi hüquqi şəxs ləğv edildikdə və başqa şəxsə keçməsi nəzərdə tutulmadıqda;

31.2.7. icazə (müqavilə) sənədi ləğv edildikdə və ya etibarsız hesab edildikdə;

31.2.8. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

31.2.9. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində nəzərdə tutulmuş hallarda.

31.3. Yerin təkindən istifadə hüququnun ləğv edilməsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən inzibati akt qəbul edilir. Həmin inzibati aktda istifadə hüququnun ləğvinə əsas olan hallar göstərilməlidir. İnzibati akt qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində yerin təki istifadəçisinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

31.4. İstifadə hüququnun ləğvi haqqında inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

**Maddə 32. Yerin təkindən istifadə hüququnun dayandırılması, ləğvi və yenidən rəsmiləşdirilməsi qaydası**

32.1. Yerin təkindən istifadə hüququnun dayandırılması bu Qanunla və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

32.2. Yerin təkindən istifadə bu Qanunun 30.1.3-cü və 30.1.4-cü maddələrində nəzərdə tutulmuş hallarda dayandırıldıqda, istismar üzrə müəssisələrin və istismarla əlaqədar olmayan yeraltı qurğuların konservasiyasına və ya ləğvinə çəkilən xərclər hüquqi və fiziki şəxslərin təqsiri olmadığı hallarda dövlət tərəfindən ödənilir. Yerin təkindən istifadə bu Qanunun 30.1.1, 30.1.2, 30.1.5, 30.1.6-cı maddələrinin, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.1.2-ci maddəsində göstərilmiş səbəblərə görə və ya yerin təki istifadəçisinin təşəbbüsü ilə dayandırılarsa, istismar üzrə müəssisələrin və istismarla əlaqədar olmayan yeraltı qurğuların konservasiyasına və ya ləğvinə çəkilən xərclər yerin təkinin istifadəçisi tərəfindən ödənilir.

32.3. Yerin təkindən istifadə hüququnun dayandırılmasına səbəb olan hallar aradan qaldırıldığı təqdirdə, bu hüquq bu Qanunla və ya “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.5-ci maddəsində nəzərdə tutulmuş qaydada icazə (müqavilə) verən orqanın inzibati aktı ilə bərpa olunur bərpa olunur. Bu barədə inzibati akt qəbul olunduğu tarixdən 2 iş günü müddətində yer təki istifadəçisinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

32.4. Yerin təkindən istifadə hüququnun ləğvi bu Qanunla və ya “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

32.5. Yerin təkindən istifadə hüququnun yenidən rəsmiləşdirilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində nəzərdə tutulmuş hallarda və qaydada həyata keçirilir.

## 5-cı fəsil

## YER TƏKİ SAHƏSİNDƏ OPERATOR

### Maddə 33. Operator

33.1. Operator, faydalı qazıntının istismarı ilə əlaqədar yerin təki istifadəçisini yerin təkindən istifadə prosesində təmsil edən hüquqi və fiziki şəxsdir. Müqavilə sahibi operatora yerin təki sahəsinə çıxışı təmin edir, çıxarılan faydalı qazıntılar və ya onların satışından əldə edilən gəlir xərclər və risklər nəzərə alınmaqla tərəflər arasında razılaşdırılmış qaydada bölüşdürülür.

33.2. Yerin təki istifadəçisi yerin təkindən istifadəyə dair ona məxsus müqavilə sənədi üzrə operator qismində çıxış edə bilməz.

33.3. Operator ilə yerin təki istifadəçisi arasında olan münasibətlər tərəflər arasında yazılı formada bağlanmış müqavilə ilə tənzimlənir və həmin müqavilənin qüvvədə olma müddəti yerin təkindən istifadə hüququna dair icazənin müddətindən artıq ola bilməz. Müqavilə ilə bağlı münasibətlərə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müəddəaları tətbiq edilir.

### Maddə 34. Operatorun təyin olunması

34.1. Yerin təkindən istifadə sahəsində operatorun təyin olunması ilə bağlı yerin təki istifadəçisi tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı formada bildiriş verilir. Qeyd olunan bildirişə tərəflər arasında bağlanmış müqavilənin surəti əlavə olunur.

34.2. Yerin təki istifadəçisi tərəfindən operatorun səlahiyyətinə xitam verildiyi halda, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı formada bildiriş verilməlidir.

### Maddə 35. Operatorun məsuliyyəti

Yerin təkindən istifadəyə dair müqavilənin şərtlərinin operator tərəfindən pozulmasına görə yerin təki istifadəçisi operatorla birgə məsuliyyət daşıyır.

## 6-cı fəsil

## YER TƏKİNDƏN İSTİFADƏ İLƏ BAĞLI HƏRRACLARIN KEÇİRİLMƏSİ

### M a d d ə 36. Yerin təkinin istifadəyə verilməsi üzrə keçirilən hərracların forması

36.1. Birbaşa danışıqlar yolu ilə istifadəyə verilmə halları istisna olmaqla yer təki sahələri istifadəyə hərrac (müsabiqə və auksion) vasitəsi ilə verilir. Azərbaycan

Respublikası ərazisində yerləşən qeyri-filiz yataqları istismar məqsədilə auksion, filiz yataqları müsabiqə qaydasında istifadəyə verilir.

36.2. Müsabiqə açıq və ya qapalı olur. Auksion açıq şəkildə keçirilir. Açıq müsabiqə və auksionda istənilən şəxs iştirak edə bilər.

36.3. Açıq müsabiqədə və auksionda mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının, habelə xarici ölkələrin hüquqi və fiziki şəxsləri iştirak edə bilərlər.

36.4. Qapalı müsabiqədə yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edirlər. Qapalı müsabiqə keçirildikdə iştirakçı həmçinin "Dövlət sirri haqqında" Qanununa uyğun olaraq məxfi hesab olunan məlumatlardan və sənədlərdən istifadə hüququna malik olmalıdır.

36.5. Qapalı müsabiqə aşağıda göstərilən hallarda keçirilir:

36.5.1. istifadəyə verilən yerin təki sahəsinə dair geoloji informasiya məxfi hesab edilikdə;

36.5.2. konversiya proqramını həyata keçirən müdafiə müəssisələri iştirakçı qismində çıxış etdikdə;

36.5.3. radioaktiv xammalın çıxarılması məqsədilə yer təki istifadəyə verildikdə.

36.4. Yer təkinin istifadəyə verilməsi üzrə hərracların keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

## 7- ci fəsil

## YER TƏKİNİN SƏMƏRƏLİ İSTİFADƏSİ VƏ MÜHAFİZƏSİ

### Maddə 37. Yerin təkinin səmərəli istifadəsinə və mühafizəsinə aid əsas tələblər

37.1.Yerin təkinin səmərəli istifadəsinə aid əsas tələblər aşağıdakılardır:

37.1.1. yerin təkinin istifadəyə verilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydasına riayət olunması və yerin təkindən özbaşına istifadəyə yol verilməməsi;

37.1.2. yerin təkinin geoloji öyrənilməsi, səmərəli və kompleks istifadəsi və mühafizəsinin dolğunluğunun təmin edilməsi;

37.1.3. yerin təkinin geoloji öyrənilməsi və ondan kompleks istifadəni təmin etmək məqsədilə hər bir faydalı qazıntı yatağı üzrə kondisiyaların müəyyən edilməsi;

37.1.4. dövlət geoloji ekspertizasının aparılması;

37.1.5. faydalı qazıntı yataqlarının işlənilməsi zamanı yerin təkindən çıxarılan və yerin təkində saxlanılan faydalı qazıntıların və yanakı komponentlərin uçotu;

37.1.6. çatlı süxurların və sulu təbəqələrin səthə çıxdığı yerlərdə, habelə içməli su təchizatı və təsərrüfat məişət ehtiyacları üçün istifadə olunan yeraltı su obyektlərinin sututar sahələrində sənaye və məişət tullantılarının yığılmasının qarşısının alınması, habelə yeraltı içməli suların minerallaşmış və ya kondisiyaya uyğun gəlməyən sularla qarışması təhlükəsi olan sahələrdə yeraltı içməli suların mühafizə rejiminə nəzarət edilməsi;

37.1.7. ətraf mühitin qorunması, torpaqların rekultivasiyası, mədən qazmalarının, buruq quyularının konservasiyası və yaxud ləğvi qaydalarına əməl edilməsi;

37.1.8. balıqçılıq su obyektlərinin vəziyyətinə təsir edə bilən yerin təkinin istifadəsi ilə əlaqədar layihələrinin dövlət ekoloji ekspertizasının “Balıqçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinə uyğun olaraq keçirilməsi;

37.1.9. mədən işləri ilə əlaqədar mineral-texnogen törəmələrdən səmərəli istifadənin, onların mühafizəsinin və uçotunun aparılmasının təmin olunması.

37.2. Yerin təkinin mühafizəsinə aid əsas tələblər aşağıdakılardır:

37.2.1. yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə qaydaların tələblərinə əməl ounması;

37.2.2. faydalı qazıntı yataqlarının su basmasından, şüalanmadan, yanğından və faydalı qazıntıların keyfiyyətini aşağı sala bilən, yataqların sənaye əhəmiyyətini azaldan və ya onların işlənməsini mürəkkəbləşdirən hallara və faydalı qazıntı yatağının istismar üçün yararsız hala düşməsinə, habelə neft, qaz və başqa maddələr, materiallar yer altında saxlanılarkən zərərli maddələr və istehsal tullantıları basdırılarkən faydalı qazıntı yataqlarının olduğu yerlərin çirklənməsinə yol verilməməsi;

37.2.3. geoloji və ya digər məlumatlara mülkiyyət hüququnun və bu məlumatların məxfiliyinin pozulmaması;

37.2.4. faydalı qazıntıların yerləşdiyi sahələrdə özbaşına tikinti işləri aparılmaması;

37.2.5. yerin təkindən istifadə edilərkən bina və qurğuların, eləcə də xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin toxunulmazlığının təmin edilməməsi;

37.2.6. yeraltı suların müşahidə quyularının, markşeyder və geodeziya nişanlarının məhv edilməsinə və zədələnməsi;

37.2.7. ləğv edilən və konservasiya olunan mədən qazmalarının və buruq quyularının əhalinin və ətraf mühitin təhlükəsizliyini təmin edən vəziyyətə gətirilməsi, habelə konservasiya müddəti ərzində faydalı qazıntı yataqlarının, mədən qazmalarının və buruq quyularının qorunması tələblərinə əməl edilməməsi;

37.2.8. yerin təkindən istifadə edilərkən yararsız hala salınmış torpaq sahələrinin və digər təbiət obyektlərinin onların gələcək istifadəsi üçün yararlı vəziyyətə gətirilməməsi;

37.2.9. faydalı qazıntı ehtiyatlarının illik hesabat balansı faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması qaydalarına uyğun təqdim edilməməsi;

37.2.10. yer təki sahələrinin geoloji öyrənilməsi, faydalı qazıntıların çıxarılması, eləcə də onların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün dövlət qeydiyyatına alınmayan yerin təki sahələrindən istifadə ilə əlaqədar işlər aparılmaması;

37.2.11. yerin təkindən istifadə zamanı “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi üzrə tələblərin pozulmasına yol verilməməsi;

**Maddə 38. Yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz görülməsinə aid əsas tələblər**

38.1. Yerin təkinin istifadəsinə, müxtəlif təyinatlı yeraltı qurğuların tikintisinə və istifadəsinə ancaq onların təsir zonasında yerləşən əhalinin həyat və sağlamlığının təhlükəsizliyinin təmin edilməsi şərti ilə icazə verilir.

38.2. Yerin təkinin istifadəçiləri yerin təkinin istifadəsi ilə əlaqədar işlərin təhlükəsiz görülməsi üzrə təsdiq edilmiş qaydaların tələblərinin yerinə yetirilməsini təmin etməlidirlər.

38.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması məsələlərinin dövlət tənzimlənməsini və nəzarət funksiyalarını həyata keçirir.

38.4. Yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz görülməsi üçün məsuliyyəti bilavasitə hüquqi şəxslərin qanuni təmsilçiləri və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər daşıyırlar.

38.5. Yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz görülməsinin təmin edilməsinə aid əsas tələblər aşağıdakılardır:

38.5.1. mədən və buruq qazma işləri ilə məşğul olan şəxslərin xüsusi geyim və qorunma vasitələri ilə təmin edilməsi;

38.5.2. təhlükəsizlik texnikası qaydalarının və sanitariya normalarının tələblərinə uyğun gələn maşın, avadanlıq və materialların tətbiq edilməsi;

38.5.3. radioaktiv, partlayıcı maddələrdən və vasitələrdən düzgün istifadə edilməsi, onların uçotu, saxlanması və işlədilməsi;

38.5.4. işlərin normal texnoloji rejiminin və təhlükəli halların proqnozlaşdırılmasının təmin olunması üçün müşahidələrin aparılması;

38.5.5. mədəndə atmosferin vəziyyətinə, oksigenin, zərərli və partlayış təhlükəli qazların və tozların miqdarına müntəzəm nəzarət;

38.5.6. normal iş rejimlərində və qəza hallarında yerin təkindən istifadə ilə əlaqədar işlərin təsir zonasındakı əhalinin mühafizəsini təmin edən tədbirlərin hazırlanması və həyata keçirilməsi.

38.6. Yerin təkinin istifadəçiləri mədən xilasetmə, açıq neft və qaz fontanlarının qarşısının alınması məqsədilə profilaktiki işlərin və bu cür texnogen qəzaların ləğv edilməsi üzrə ixtisaslaşmış qurumlar yaratmalı, yaxud müqavilə yolu ilə müvafiq xidmətlərdən istifadə etməlidirlər.

38.7. Yerin təkindən istifadə ilə əlaqədar işlər aparan hüquqi şəxslərin qanuni təmsilçiləri və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, işçilərin, işlərin təsir zonasında yerləşən əhalinin həyat və sağlamlığına bilavasitə təhlükə yaranarkən, dərhal işləri dayandırıb insanların təhlükəsiz yerə keçirilməsini təmin etməli və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlarına (qurumlarına) təcili məlumat verməlidirlər.

**Maddə 39. Faydalı qazıntılar yerləşən sahələrdə tikinti işlərinin aparılması şərtləri**

39.1. Faydalı qazıntılar yerləşən sahələrdə yaşayış məntəqələrinin, sənaye komplekslərinin, digər təsərrüfat obyektlərinin layihələşdirilməsinə və tikintisinə dair işlərlə əlaqədar boru, kabel və digər kommunikasiya xəttlərinin çəkilməsinə aparılmasına, eləcə də həmin sahələrdə yeraltı qurğuların yerləşdirilməsinə faydalı qazıntıların istismarının mümkünlüyü və tikinti işlərinin iqtisadi cəhətdən məqsədəuyğunluğunu, habelə mədən işlərinin təhlükəsiz aparılmasını və yeraltı şəraiti nəzərə almaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən razılıq verilir.

39.2. Faydalı qazıntılar yerləşən sahələrdə özbaşına aparılan tikinti işləri, onlara qoyulan vəsait, tikililərin sökülməsinə və sahənin rekultivasiyasına çəkilən xərclər ödənilmədən dayandırılır.

**Maddə 40. İstismar üzrə hasilat sahələrinin və istismarla əlaqədar olmayan yeraltı qurğuların ləğv edilməsi və konservasiyası**

40.1. Faydalı qazıntı ehtiyatı tükənmiş yataq sahələri və istismarla əlaqədar olmayaraq artıq istifadə edilməyən yeraltı qurğular ləğv və ya konservasiya edilməlidir. Bu proses başa çatanadək yerin təkinin istifadəçisi bu Qanunla onun öhdəsinə qoyulmuş məsuliyyəti daşıyır.

40.2. Istismar üzrə hasilat sahələri tamamilə, ya da qismən ləğv və ya konservasiya edildikdə mədən qazmaları və buruq quyuları əhalinin həyat və sağlamlığının təhlükəsizliyini, ətraf mühitin, binaların və qurğuların mühafizəsini, konservasiya müddəti ərzində isə həmçinin yatağın, mədən qazmalarının və buruq quyularının salamatlığını təmin edən vəziyyətə gətirilməlidir.

40.3. Istismar üzrə hasilat sahələri və ya onun bir hissəsi, eləcə də istismarla əlaqədar olmayan yeraltı qurğu ləğv və konservasiya edilərkən geoloji, markşeyder və digər sənədlər qanunvericiliklə müəyyən edilmiş qaydada saxlanılır.

40.4. İstismar üzrə hasilat sahələrinin, yataqlarının, mədən qazmalarının, buruq quyularının və istismarla əlaqədar olmayan yeraltı qurğuların tikintisi, genişləndirilməsi, yenidən qurulması, texniki cəhətdən yeniləşməsi, konservasiyası və ləğv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 41. Geoloji irs obyektləri olan yerin təki sahələrinin mühafizəsi**

41.1. Geoloji irs obyektlərinin və əsasən bu cür obyektlərdən ibarət təbiət komplekslərinin yerləşdiyi yer təki sahələrinə geoloji profilli xüsusi mühafizə olunan təbiət əraziləri (dövlət geoloji qoruqlar və yasaqlıqları, geoloji parklar, təbiət abidələri) statusu verilə bilər. Onların salamatlığına xələl gətirən fəaliyyət qadağandır.

41.2. Yerin təkindən istifadə zamanı elm və mədəniyyət üçün maraq doğuran nadir geoloji və mineraloji törəmələr, meteoritlər, paleontoloji, arxeoloji və digər obyektlər aşkar edilərkən yerin təkinin istismarını işləri dayandırır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) bu barədə məlumat verilir və "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbir görülür.

**Maddə 42. Yerin təkindən istifadənin zərərli nəticələrinin aradan qaldırılması**

42.1. Yerin təki istifadəçisi, bu Qanunla başqa hal nəzərdə tutulmayıbsa, ona verilmiş yerin təki sahəsində yerin təkindən istifadə üzrə əməliyyatların zərərli nəticələrini aradan qaldırmağa borcludur.

42.2. Yerin təkindən istifadənin nəticələrinin aradan qaldırılması istehsal müəssisələrinin və torpaq sahələrinin əhalinin həyat və sağlamlığının təhlükəsizliyini, ətraf mühitin mühafizəsini təmin edən vəziyyətə gətirmək üçün, habelə yerin təki istifadəçisinin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi üçün həyata keçirilən tədbirlərin məcmusudur.

### Maddə 43. Yerin təkindən istifadənin məhdudlaşdırılması

43.1. Yer təkinin ayrı-ayrı sahələrindən istifadə ölkə təhlükəsizliyi və ətraf mühitin mühafizəsini təmin etmək məqsədilə məhdudlaşdırıla, yaxud qadağan edilə bilər.

43.2. Əgər yaşayış məntəqələrinin, şəhərətrafı zonaların, sənaye, nəqliyyat və rabitə obyektlərinin ərazilərində yerin təkindən istifadə insanların həyat və sağlamlığına təhlükə törədərsə, təsərrüfat obyektlərinə və ya ətraf mühitə zərər vurarsa, o, qismən və ya tamamilə qadağan edilə bilər.

43.3. Xüsusi mühafizə edilən ərazilərdə yerin təkindən bu ərazilərin statusuna və müvafiq qanunvericiliyə uyğun olaraq istifadə edilir.

### Maddə 44. Yerin təki istifadəçilərinin hesabatlılığı

44.1. Yerin təki istismarçıları yerin təkindən istifadə ilə bağlı işlərə dair hər rüb üçün növbəti rübün birinci ayının 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat təqdim etməyə borcludurlar.

44.2. Dövlət orqanına təqdim edilən hesabatlarda yerin təkindən istifadəçinin müəyyən dövr (hesabat dövrü) üzrə fəaliyyətinin nəticələri haqqında məlumatlar əks etdirilir.

## 8-ci fəsil

## YER TƏKİNİN GEOLOJİ ÖYRƏNİLMƏSİ

### Maddə 45. Yerin təkinin geoloji öyrənilməsinə aid əsas tələblər

45.1. Yerin təkinin geoloji öyrənilməsinə aid əsas tələblər aşağıdakılardır:

45.1.1. yerin təkinin geoloji öyrənilməsinin elmi əsaslandırılması və səmərəliliyi;

45.1.2. yerin təkinin geoloji quruluşunun, kəşf edilmiş yataqların işlənilməsinin, eləcə də istismarla əlaqədar olmayan yeraltı qurğuların tikintisinin və istismarının mədən-texniki, hidrogeoloji, ekoloji şəraitinin dolğun öyrənilməsi;

45.1.3. faydalı qazıntı ehtiyatlarının, onların komponentlərinin kəmiyyət və keyfiyyətinin dəqiqliyi, faydalı qazıntı yataqlarının geoloji-iqtisadi qiymətləndirilməsi;

45.1.4.yerin təkinin və ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydalara əməl olunması;

45.1.5. yerin təkinin geoloji öyrənilməsinin faydalı qazıntıların əsassız itkisinə yol verməyən metod və üsullarla aparılması;

45.1.6. yerin təkindən çıxarılan yanakı süxurların, habelə faydalı komponent saxlayan süxurların ətraf mühitə zərərli təsir göstərməmək şərtilə yerləşdirilməsi;

45.1.7. yataqların işlənilməsi və digər təsərrüfat məqsədləri üçün istifadə oluna biləcək kəşfiyyat mədən qazmalarının və quyularının qorunub saxlanılması, istifadəyə yararsız qazmaların və quyuların müəyyənləşdirilmiş qaydada ləğv edilməsi;

45.1.8. yerin təkinin geoloji öyrənilməsi prosesində əldə edilən, gələcəkdə yerin təkindən istifadəyə yararlı geoloji və texniki sənədlərin və faydalı qazıntı sınaqları dublikatlarının müəyyən olunmuş qaydada qorunub saxlanması.

## Maddə 46. Dövlət uçotu və dövlət qeydiyyatı

46.1. Yerin təkinin geoloji öyrənilməsi, faydalı qazıntıların istismarı, mineral-texnogen törəmələrdən istifadə, eləcə də istismar ilə əlaqədar olmayan məqsədlər üçün verilən yerin təki sahələri və onlarla əlaqədar müvafiq işlər, o cümlədən dövlət geoloji ekspertizası dövlət uçotuna və dövlət qeydiyyatına alınır. Dövlət qeydiyyatında olan yerin təkinin geoloji öyrənilməsi və istifadəsinin bütün növlərini və vəziyyətini səciyyələndirən materialların (hesabat, xəritə, məlumat vərəqi və digər sənədlərin) dövlət uçotu aparılır.

46.2. Dövlət uçotu və dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vahid sistem üzrə aparılır.

46.3. Dövlət qeydiyyatı olmadan yerin təkindən istifadə ilə əlaqədar işlərin aparılması qadağandır.

46.4. Mineral-texnogen tullantılarının dövlət uçotunun aparılmasının məqsədi faydalı qazıntının istismarı zamanı texnoloji prosesə daxil olan kütlənin dəqiqləşdirilməsi, həmçinin sənayenin digər sahələrində istifadəyə yarayan, anbarlaşdırılmış və mühafizəsi təmin olunan kütlənin müəyyənləşdirilməsindən ibarətdir.

46.5. Yerin təkinin geoloji öyrənilməsi, istismar, eləcə də istismar ilə əlaqədar olmayan məqsədlər üçün verilən yerin təki sahələri və onlarla əlaqədar müvafiq işlərin dövlət qeydiyyatı və dövlət uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

## Maddə 47. Yerin təkinin dövlət geoloji öyrənilməsi

47.1. Azərbaycan Respublikasının mineral-xammal bazasının genişləndirilməsi və möhkəmləndirilməsinin təmin edilməsi məqsədilə yerin təkinin dövlət geoloji öyrənilməsi həyata keçirilir.

47.2. Yerin təkinin dövlət geoloji öyrənilməsinin əsas məqsədi ölkə ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində geoloji tədqiqatların və xəritəalma işlərinin aparılması, faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı, yerin təkində baş verən proseslərin proqnozlaşdırılması, mineral-xammal bazası haqqında informasiyanın toplanması, sistemləşdirilməsi, saxlanılması və digər işlərin həyata keçirilməsindən ibarətdir.

## Maddə 48. Faydalı qazıntı yataqlarının geoloji-iqtisadi qiymətləndirilməsi

48.1. Faydalı qazıntı yataqlarının sənaye əhəmiyyəti, geoloji və digər şəraiti nəzərə alınmaqla onların səmərəli və təhlükəsiz işlədilməsi üsullarının müəyyən edilməsi, yerin təkinin öyrənilməsinin dolğunluğu, ondan kompleks istifadə olunmasını təmin etmək məqsədilə hər bir yatağın geoloji-iqtisadi qiymətləndirilməsi aparılır və mineral-xammal üçün kondisiyalar müəyyən edilir.

48.2. Mineral-xammal üçün kondisiyalar əsas faydalı qazıntılardan, habelə onların tərkibində olan qiymətli komponentlərdən istifadə olunması nəzərə alınmaqla hazırlanır və yatağın sənaye ehtiyatlarının hesablanmasının əsasını təşkil edir.

48.3. Ümumi yayılmış faydalı qazıntıların keyfiyyətinə verilən tələblər standartlarla və texniki şərtlərlə müəyyən olunur.

48.4. Geoloji öyrənilmə işlərinin aparılması zamanı geoloji-iqtisadi qiymətləndirilməsi tələb olunur.

48.5. Faydalı qazıntı yataqlarının geoloji-iqtisadi qiymətləndirilməsinin meyarları və aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 49. Dövlət geoloji ekspertizası**

49.1. Mineral xammal ehtiyatlarından səmərəli və kompleks istifadəni təmin etmək məqsədilə kondisiya və faydalı qazıntı yataqlarının ehtiyatlarına dair geoloji informasiyası dövlət geoloji ekspertizasından keçirilməlidir.

49.2. Dövlət geoloji ekspertizası faydalı qazıntı yataqlarının istifadəyə verilməsindən öncə aparılır. Bu hallarda ekspertizaya təqdim olunan geoloji hesabatlar faydalı qazıntı ehtiyatlarının kəmiyyətini və keyfiyyətini, sənaye əhəmiyyətini, onların istismarının dağ-texniki, hidrogeoloji, ekoloji və digər şəraitini obyektiv qiymətləndirməyə imkan verməlidir.

49.3. İstismarla əlaqədar olmayan yeraltı qurğuların tikintisi və istifadəsi üçün yerin təki sahələri haqqında geoloji informasiya dövlət geoloji ekspertizasından keçirilməlidir.

49.4. faydalı qazıntı yataqları və ya istismarla əlaqədar olmayan yeraltı qurğuların tikintisi və istifadəsi üçün yararlı olan yerin təki sahələri haqqında geoloji informasiyanın dövlət geoloji ekspertizası aparıldıqdan və ekspert rəyi təsdiq edildikdən sonra həmin sahələr istifadəyə verilir.

49.5. Dövlət geoloji ekspertizası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 50. Faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi**

50.1. Kəşf edilmiş faydalı qazıntı ehtiyatları və eləcə də yataqların istismarı zamanı əlavə kəşf edilmiş faydalı qazıntıların ehtiyatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən (Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Faydalı Qazıntı Ehtiyatları üzrə Komissiyası) təsdiq edilir. Faydalı qazıntı ehtiyatları təsdiq edilərkən kəşf edilmiş ehtiyatların sənaye əhəmiyyəti, səhihliyi, kəmiyyəti, keyfiyyəti, yerləşmə şəraiti, öyrənilmə dərəcəsi və istismara hazır olması müəyyənləşdirilir.

50.2. Kəşf olunmuş faydalı qazıntı ehtiyatının sənaye əhəmiyyəti onların dövlət balansında qeydiyyata alınmasına və uçotunun aparılmasına əsas verir.

50.3. Yerin təkinin faydalı qazıntıların istismarı üçün istifadəyə verilməsinə yalnız onların ehtiyatları təsdiq edildikdən sonra icazə verilir.

50.4. istismar olunarkən sənaye əhəmiyyətini itirmiş, əlavə geoloji öyrənilmə işləri zamanı təsdiqini tapmamış faydalı qazıntı ehtiyatları müəyyən edilmiş qaydada, faydalı qazıntı ehtiyatlarının dövlət balansında müvafiq dəyişikliklər edilməklə, istismar işlərini aparan subyektə ayrılmış ehtiyat balansından silinir.

50.5. Faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi qaydalarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 51. Yerin təki haqqında geoloji informasiya**

51.1. Yerin təki haqqında geoloji informasiya (bundan sonra - geoloji informasiya) Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər Dənizinin (gölünün) ona mənsub olan bölməsi daxilində yerin təkinin öyrənilməsi üzrə geoloji planaalma, axtarış, kəşfiyyat, elmi-tədqiqat işləri və istismarı nəticəsində əldə edilən bütün geoloji, geofiziki, geokimyəvi, hidrogeoloji və mühəndis-geoloji, kompleks geoekoloji, aero və kosmogeoloji, yeraltı suların rejimi və balansı və zəlzələlərin proqnozlaşdırılmasına aid məlumatlardan ibarətdir

51.2. Yerin təkinin geoloji quruluşu, orada olan faydalı qazıntılar, mühəndis-texniki şəraiti, həmçinin yerin təkinin geoloji öyrənilməsi haqqında hesabatlarda, xəritələrdə, nümunələrdə və başqa məlumatlarda olan informasiya Azərbaycan Respublikasına mənsubdur.

51.4. Dövlət vəsaiti hesabına əldə edilmiş geoloji və digər informasiya müəyyən edilmiş formada dövlət geoloji informasiya fonduna verilir. Həmin informasiya fondda saxlanılır və sistemləşdirilir.

51.5. Öz maliyyə vəsaitləri hesabına yerin təki haqqında geoloji və digər informasiya hazırlayan hüquqi və fiziki şəxslər həmin informasiyanı dövlət geoloji informasiya fonduna verir və ondan istifadənin şərtlərini müəyyən edir.

51.6. Azərbaycan Respublikasının, habelə xarici ölkələrin hüquqi və fiziki şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada geoloji informasiyadan istifadə etmək hüququna malikdirlər.

51.7. Yerin təki haqqında geoloji informasiyadan istifadə ödənişlidir. Öz maliyyə vəsaitləri hesabına yerin təki haqqında geoloji və digər informasiya hazırlayan fiziki və hüquqi şəxslər yalnız özlərinin əldə etdikləri geoloji informasiyadan ödənişsiz istifadə edirlər.

51.8. Yerin təkinin geoloji informasiya fondunun formalaşdırması və geoloji informasiyadan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 52. Faydalı qazıntı ehtiyatlarının dövlət balansı, faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrı və onların aparılması**

52.1. Faydalı qazıntı ehtiyatlarının dövlət balansı sənaye əhəmiyyətli yataqlar üzrə hər növ faydalı qazıntı ehtiyatlarının kəmiyyəti, keyfiyyəti, öyrənilmə dərəcəsi, onların yerləşməsi, sənayedə istifadə mümkünlüyü, istismarı, itkisi və kəşf edilmiş

faydalı qazıntı ehtiyatları ilə sənayenin təmin edilməsi haqqında məlumatları özündə əks etdirir və mineral-xammal bazasının vəziyyətinin uçotu məqsədilə aparılır.

52.2. Faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrı, hər bir yataq üzrə əsas və yanakı faydalı qazıntı ehtiyatlarının kəmiyyətini və keyfiyyətini, onlarda olan komponentlərin miqdarını, yataqların işlənməsinin mədən-texniki, hidrogeoloji, ekoloji şəraitini və geoloji-iqtisadi qiymətləndirilməsini səciyyələndirən məlumatları, eləcə də hər bir faydalı qazıntı təzahürünə dair məlumatları özündə birləşdirməlidir.

52.3. Dövlət kadastrı faydalı qazıntı yataqlarının kompleks istifadəsi, onların işlənilməsi ilə əlaqədar infrastrukturun səmərəli inkişafı və yerləşdirilməsi məqsədi ilə aparılır.

52.4. Faydalı qazıntı ehtiyatlarının dövlət balansı və faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrı yerin təkinin geoloji öyrənilməsi və faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yerin təki istifadəçilərinin dövlət geoloji informasiya fonduna təqdim etdikləri statistik hesabatlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tərtib edilir və aparılır.

52.5. Faydalı qazıntı ehtiyatlarının dövlət qeydiyyatı, uçotu, balansı və kadastrının aparılması qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

### Maddə 53. Faydalı qazıntı yataqlarının kəşfçiləri

53.1. Əvvəllər məlum olmayan sənaye əhəmiyyətli faydalı qazıntı yatağı, habelə məlum yataqda onun sənaye əhəmiyyətini xeyli artıran əlavə faydalı qazıntı ehtiyatları və ya yeni mineral-xammalın olması ehtimalını elmi əsaslandıran və aşkara çıxaran şəxslər kəşfçilər hesab edilirlər.

53.2. Hüquqi və fiziki şəxslərin mükafatlandırılmasına onların faydalı qazıntı yatağının aşkar edilməsi barədə təqdim olunmuş müraciətlərinə əsasən baxılır.

53.3. Faydalı qazıntı yataqlarının kəşfçilərinin mükafatlandırılması qaydasını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

## 9-cu fəsil

## YERİN TƏKİNDƏN İSTİFADƏNİN İQTİSADİ MEXANİZMLƏRİ

### Maddə 54. Yerin təkindən istifadəyə görə ödəmənin növləri

54.1. Azərbaycan Respublikası ərazisində yerin təkindən istifadəyə görə ödənişlər aşağıdakılardır:

54.1.1. yerin təki sahəsində faydalı qazıntıların istismarına icazənin alınması üçün dövlət rüsumu;

54.1.2. hərrac (auksion və müsabiqə) predmetinin dəyəri;

54.1.3. mineral-xammal bazasının bərpasına ayırmalar;

54.1.4. mineral-texnogen törəmələrdən istifadəyə görə ödəniş.

54.1.5. mədən vergisi;

54.2. Bu Qanunun 56.1.5-ci maddəsi istisna edilməklə yerin təkindən istifadəyə görə ödənişlərin miqdarı və alınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 55. Yerin təki sahəsində faydalı qazıntıların istismarına icazənin verilməsinə görə dövlət rüsumu**

Yerin təki sahəsində faydalı qazıntıların istismarına icazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

**Maddə 56. Hərrac *(auksion və müsabiqə)* predmetinin dəyəri**

Yerin təki sahələrinin istifadəyə verilməsi məqsədi ilə keçirilən hərracda (auksion və müsabiqə) qalib olan şəxslər predmetin dəyərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına ödəyirlər.

**Maddə 57. Mineral-xammal bazasının bərpasına ayırma**

57.1. Mineral-xammal bazasının bərpasına ayırmalar dövlət tərəfindən kəşfiyyatı aparılmış və istismara hazır vəziyyətə gətirilimiş yataqlar üzrə dövlətin çəkdiyi xərclərin geri qaytarılması məqsədilə yerin təki istifadəçilərindən alınır.
57.2. Mineral-xammal bazasının bərpasına ayırmaların miqdarı faktiki çıxarılan faydalı qazıntıların növündən asılı olaraq hesablanmış mədən vergisinin məbləğindən faizlə müəyyən edilir.
57.3. Geoloji öyrənilməni öz vəsaiti hesabına aparmış, yaxud dövlətin çəkdiyi xərcləri tam ödəmiş yerin təki istifadəçiləri həmin yataqları istismar edərkən mineral-xammal bazasının bərpasına ayırmaları ödəməkdən azad edilirlər.
57.4. Geoloji öyrənilməni öz vəsaiti hesabına aparmış yerin təki istifadəçiləri yeni faydalı qazıntı yataqları kəşf etdikdən sonra yataqlardan istifadə etməkdən imtina etdikdə və həmin yataqlar başqa şəxslərin istifadəsinə verildikdə, geoloji öyrənilməyə sərf edilən vəsait həmin işləri aparmış hüquqi və ya fiziki şəxsə qaytarılır.

**Maddə 58. Mineral-texnogen törəmələrdən istifadəyə görə ödəniş**

58.1. Mineral-texnogen törəmələrdən istifadəyə görə ödəniş müvafiq faydalı qazıntının hasilatına görə hesablanmış mineral-xammal bazasının bərpasına ayırmaların məbləğinin 50 (əlli) faizi miqdarında müəyyən edilir.
58.2. Faydalı qazıntıların istismarını həyata keçirən şəxslər istifadə müddəti ərzində mineral-texnogen törəmələrdən istifadəyə görə ödənişdən azaddırlar.

**Maddə 59. Mədən vergisi**

Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların

çıxarılmasına görə mədən vergisi Azərbaycan Respublikası Vergilər Məcəlləsində nəzərdə tutulmuş qaydada və hallarda ödənilir.

**Maddə 60. Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fondu**

60.1. Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fondu yerin təkinin geoloji öyrənilməsi, mineral xammal bazasının bərpası, yerin təkinin mühafizəsi sahəsində tədbirlərin görülməsi, ona vurulan zərərin aradan qaldırılması, mineral-xammal sahəsinin inkişafının təmin edilməsi və başqa tədbirlərin maliyyələşdirilməsi üçün yaradılır.

60.2. Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fondu mineral-xammal bazasının bərpasına yönəldilmiş ayırmalar, yerin təki haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr, yerin təkindən istifadə qaydalarının pozulması nəticəsində ətraf mühitə vurulan ziyana görə ödənişlər, qrantlar və könüllü ianələr, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan başqa daxilolmalar hesabına təşkil olunur.

60.3. Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fondunun vəsaitləri təyinatı üzrə istifadə olunmalıdır və onların başqa məqsədlər üçün xərclənməsinə yol verilmir.

60.4. Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fondunun formalaşdırılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 61. Yerin təkindən istifadəyə görə ödənişlərdə istisnalar**

61.1. Azərbaycan Respublikasında yerin təkindən istifadəyə görə ödəmələrdə istisnalar aşağıdakı hallarda tətbiq edilir:

61.1.1. hüquqi və fiziki şəxslərin mülkiyyətində olan və ya icarəyə götürülmüş torpaq sahəsində öz ehtiyaclarının ödənilməsi üçün müəyyən olunmuş qaydada ümumi yayılmış faydalı qazıntılar və birinci sulu horizontdakı yeraltı sular hasil edildikdə;

61.1.2. yerin təkinin öyrənilməsinə dair elmi-tədqiqat və dövlət proqramları ilə aparılan geoloji işlər, zəlzələlərin proqnozlaşdırılması, mühəndis-geoloji araşdırmalar, geoekoloji tədqiqatlar, yeraltı suların rejiminə və balansına nəzarət, eləcə də yerin təkinin bütövlüyünü pozmamaqla görülən geoloji işlər, bu Qanunda qeyd edilən geoloji irs obyektlərinin aşkarlanması və tədqiqi üçün işlər aparıldıqda.

61.1.3. Mürəkkəb mədən-geoloji şəraitdə yerləşən, yaxud aşağı keyfiyyətə malik, o cümlədən çətin çıxarılan, kondisiyaya uyğun olmayan, faydalı qazıntıların əvvəl dövlət balansından silinmiş ehtiyatlarını saxlayan yataqların istifadə edilməsini, örtük və yan süxurlardan, mədən tullantıları və istismarla əlaqədar emal tullantılarından istifadəni, eləcə də əsas və yanakı komponentlərin istehsalını, ekoloji cəhətdən təhlükəsiz texnologiyaların tətbiqini həvəsləndirmək məqsədilə yerin təkinin istifadəçiləri yerin təkindən istifadəyə görə ödənişlərin 50 faiz həcmində azad oluna bilərlər.

**Maddə 62. Yerin təkindən istifadəyə görə ödənişlərin hesablanmasına və ödənilməsinə nəzarət**

Yerin təkindən istifadəyə görə ödənişlərin hesablanmasına və ödənilməsinə nəzarət, hesabatların vaxtında təqdim edilməməsinə, hesablanmış yerin təkindən istifadəyə görə ödənişlərin azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi, yerin təkindən istifadə üzrə yaranmış borcların alınması, yerin təkindən istifadəyə görə ödənişlərin vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş yerin təkindən istifadəyə görə ödənişlərin qaytarılması Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergilər üzrə müəyyən olunmuş qaydada həyata keçirilir.

## 10-cu fəsil

## YEKUN MÜDDƏALAR

### Maddə 63. Bu Qanunun pozulmasına görə məsuliyyət

Bu Qanunun tələblərinin pozulması Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyətə səbəb olur.

### Maddə 64. Bu Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından (faizlərdən) daxilolmalar

Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən tətbiq edilən maliyyə sanksiyası məbləğinin 43 faizi və yerin təkindən istifadəyə görə ödənişlərin gecikdirilməsinə görə hesablanan faiz məbləğinin 23 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.

### Maddə 65. İcazə sənədi ilə ayrılmayan yerin təki sahəsindən istismar nəticəsində dövlətə vurulmuş ziyanın ödənilməsi

65.1. İcazə sənədi ilə ayrılmayan yerin təki sahəsindən istismar nəticəsində dövlətə vurulmuş maddi ziyan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yerin təkindən icazəsiz çıxarılmış faydalı qazıntıların həcminə görə hesablanır.

65.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) icazəsi olmadan şəxs tərəfindən faydalı qazıntı çıxarılması müəyyən edildikdən 30 gün ərzində dövlətə vurulmuş ziyanın ödənilməsi ilə bağlı qərar ziyan vuranın ünvanına göndərilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tərəfindən dövlətə vurulmuş maddi ziyanın hesablanması barədə qəbul edilən qərar inzibati akt hesab olunur və məcburi icra olunmalıdır. Dövlətə vurulmuş maddi ziyan müvafiq icra hakimiyyəti orqanınının müəyyən etdiyi orqanın tələbi ilə könüllü ödənildikdə qanunvericiliyə uyğun hesablanmış ziyan məbləğinin 10 faiz miqdarında güzəşt edilir.

65.3. Azərbaycan Respublikasında yayılmış faydalı qazıntı yataqlarının qanunsuz işlənməsi nəticəsində dəymiş ziyana görə normativlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 66. Keçid müddəaları**

Bu Qanunun qüvvəyə mindiyi gündən “Yerin təki haqqında” Azərbaycan Respublikasının 1999-cu il 18 noyabr tarixli 753-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224; 1999, № 8, maddə 476; 2001, № 11, maddələr 669, 696, № 12, maddə 696; 2004, № 7, maddə 505; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2016, № 1, maddə 22; 2018, № 5, maddə 843; 2019, № 1, maddə 20, № 11, maddə 1689; 2020, № 7, maddə 842; 2021, № 7, maddə 661, № 12, maddə 1315**,** 6 avqust 2022-ci il, № 165) ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, __ _____ 2023-cü il

№ ______